UOT 902

HƏSƏNAĞA RAMAZANLI
AMEA, Arxeologiya və Etnoqrafya İnstitutunun
«Azərbaycanın Neolit-Eneolit dövrü arxeologiya»sı şöbəsinin aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru
Ramazanli 1946 @ mail.ru

QƏBƏLƏNİN TUNC DÖVRÜ «YEDDİ ÇİNAR» TORPAQ KURQANLARI

DOI: https://doi.org/10.36719/2708-065X/107/234-238

Bilik və elmin qarşılıqlı yaxınlaşmasının xüsusiyyətləri bir tərəfdən obyektiv ictimai proseslər çərçivəsində bilavasitə biliyə malikdirsə, digər tərəfdən daxildən bir araya sığmayan elm və təhsil müxtəlif səviyyələrdə sınanmalıdır. Bir çox məsələlərdə tamamlayıcılıq kəskin ziddiyyətlərlə qarşılanır. Nəhayət, elm və təhsildə humanitarlığın səviyyəsi nisbətən aşağıdır və müasir cəmiyyətdə təkamül şəraiti itirilib. Şimali Azərbaycanda aşkar edilmiş kurqanların sayı minlərlədir. Onlardan biri Qəbələdən çox uzaqda yerləşən çox böyük və uzunluğu 180 metr olan "Yeddi kurqan"ın ikinci saniyəsidir. Çoxsaylı təhlillər birinci və ikinci kurqanların Misir piramidalarının müasirləri olduğunu aydın şəkildə göstərmişdir.

Açar sözlər: Azərbaycan, Qəbələ, ekosistem, kurqan, Dünya, relyef.

Giriş. Uzun illərdir ki, təbiət-insan münasibətləri dəyişməmiş aksioma kimi qalmaqda davam etməkdədir. Lakin məkan, kənarlaşdırmalar və texnogen proseslərinin assimiilyasiyaları metodlarının yardımları ilə qədim-Orta tarixi-arxeoloji əsrlərin imkan çərçivələrini bir qədər də genişləndrmək mümkündür.

1.1. «Ekosistem»dən başqa «Landşaft» tipi anlayışları tariixi-arxeloji ədəbiyyattda çox nadir hallarda istifadə olunur. Hər iki ttip ərazinin kompleksli məsələlərini təxmini olsa da əhatə etsə belə yenə coğrafi sistemlərə biğanə qala bilmir. Landşaft məvhumuna aid olan iqlim, flora, fauna; yerin üst hissəsi (relyef, qorelyef) və digər anlayışları indiki mərhələdə arxeoloji artefaktlarının öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Çünki təsərrüfat həyatının müxtəlifliyi demək olar ki. landşaft tiplərinin mürəkkəbliyi ilə sıxı surətdə bağlıdır. Bütün bunların vahid şəkildə təhlili və obyektiv formada araşdırılması Azərbaycan Respublikasının şimaldan cənubadək sərhəd uzunluğu 400, şərqdən qərbə eni 500 k/m-dən şox olan ihdiki 87 min km^2 ərazisi 38^0-24$^/$ şimal, 44^0-46$^/$-50^0-51$^/$ şərq uzunluq dairələri arasında, Cənubi Qafazın şərqində, Baş Qafqaz dağ silsilələrinin cənub-şərqində, Kiçik Qafqaz sıra dağlarının əhatəsində, Kür-Araz, Lənkəran-Astara ovalıqları sahəsində, Yer kürəsinin mərkəzi hissəsində, Avrasiya qitəsində, bünövrəli subtropik qurşağında, olduqca mürəkkəb və rəngarəng təbii geomorfoloji xəritələrinin hazırlanmasına yardım göstərməməyə bilməzdi.

Avrasiyanın şərq hissəsində yerləşən Şimali Azəbaycanın 1828-ildən sonrakı ərazinin geoloji quruluşunun xüsusiyyətlərini və onu təşkil edən püskürmə, çökmə, metomorfik suxurlarının litoloyi tərkibinə görə yeddi böyük sahəyə bölünmüşdür: 1. Krım-Qafqaz dağlıq ğlkəsi, Böyük Qafqaz əyaləti, Mezazoy erasının orta, üst Leyas və Dokker, yuranın hər üç şöbəsinin (cənub-qərb) antropogen çöküntüləri, Təbaşir (Abşeron) Qobustan sinklenoru, gillicə-çaqıl tərkibli, qalın allüviallı yığınları, Qanıx-Əyriçay Pliosen antropogenin dəniz və kontinental fasiyalı (Acınohur dağ ətəkləri), üçüncü Neogen, Dödüncü dövr çöküntüləri (Kür-Araz) Paleozoy dövrü, Trias, yuranın hər üç mərhələləri, Leyas, Byos, Kimmerinin vulkanogen suxurları, Təbaşir, Senoman, Maykop lay dəstəsinin çöküntüləri, Miossen, orta Eosen, Dördüncü geoloji tavaları və s-lə örtülmüşdür.

Tunc tarixi-arxeoloji mərhələlərdə Böyük Qafqaz sıra dağlarının cənuba əyilənərazisində yerləşən Qəbələ şəhəri çox mürəkkəb geomorfoloji quruluşa, məhəlli planda dağlıq landşaft sinfinə aid olaraq təyinedci xarakterə, yəni hühdürlük qütbünə , isti və rütübətli hava şəraitinə malikdir. ərazidə gillicə-qumsallıqlar, gilli şistlər (slans), merqellər və digərləri ardıcıl olaraq bir-birini əvəz edir. Bütün bunlar demək olar ki, gemorfoloji təbəqələrin laylarını əhatə edərək böyük silsiləli və zəncirvari halqalar halında birləşərək mövcudurlar. Təbəqələr kollyüviallı, ellyüviallı, delyyüviallı, allyüviallı,

yarım allyüviallı və çox mürəkkəb dəst tipli buzlaq təbəqələrə bölünürlər. Oroqrafik xüsusiyyətlərinə görə qədim Qəbələ şəhərinin yerləşdiyi ərazi yeddi hissəyə bölünmüş Böyük afqazın cənub yamacı, Alp dağ əmələgəlmə hərəkətləri zamanı litoloji tərkiblərinə görə yağlı qumdaşlardan, tufagen, vulkanik gilli şistlərddən və əhəngdaşı suxurlardan ibarətdir. Qədim Qəbələ və onun ətrafında yerləşən çaylar isə astanalı və şəlalələdirlər. Ərazidə cənub yamacının eni 15-20 km-ə , yüksəkliklər isə 3000-4466 metrəyə çatır. Cənub yamacının Balakənddən Vəndamaqədər olan sahələrinin dərələri dərin olmaqla yanaşı, həmçinin də bəziləri müəyyən zamanlar ərzində kantionvari şəklə düşmüşdür. Dağlıq qurşağı geniş olan Qəbələ yaylalarında sahələr bir qədər yüksəklikdə mənzərələr dəyişir və yamaclardan artıq kiçik otlaq sahələrə keçir. Anik-Orta əsrlərdə şəhər ərazisində çoxçeşidli geomorfoloji element nümunələri ilə yanaşı müxtəlif relyef sahələrilə və cürbəcür sttrukturlu amillərlə də seçilir. Bu yerlərdə püskürmə çökmə və metamorfik suxurlar kembriddən başlayaraq Dördüncü dövr də daxil olmaqla ziddiyyəttli müxtəlif təbəqəli suxurlardan ibarətdir. Bu səbəblərdən geoloji quruluşun xüsusiyyətlərinə görə iri sahələrə bölünmüş Azərbaycan Respublikasının ərazisinin Böyük Qafqaz dağ sisteminin cənub yamacının ətəklərində məskən quran mərkəzləşdirilmiş Azərbaycan dövlətinin Antik və ilk Orta əsrlərin əvvəllərində paytaxtı olmuş Qəbələ şəhəri üst Alp senoman vulkanogen lay dəstəsi geniş bir zolaq şəklində Qafqaz sıra dağlarının cənub yamacları boyunca Çuxuryurd (Şamaxı bölgəsi) kəndindən və Lahıc-Vəndamdan Qax bölgəsinədək uzanır. Burada həmçinin üst Eosen və alt Olihosen, yaşlı habbaroid geoloji dövr intruzivləri diqqəti daha çox cəlb edir.

Ərazilərdə çay şəbəkələrinin sıxlığı 0,20-dən (dağətəyi zonada) 0,80 kv^2-ə bərabərdir. Qədim Qəbələ sahəsində relyeflə Yer quruluşu arasındakı əlaqə amilləri demək olar ki, hazırda çox mürəkkəb vəziyyətdədir. Şəhərin ərazi relyefi ali orogen geoloji dövrdə formalaşaraq qırışıq, qırışıq-qaymalı, qaymalı silsilələlər, tiplər və bunlar arasında yerləşən keçilməz cəngəlliklərdən ibarət olub qaymalı tektonik suxurların müasir şəkildə saxlanmaları dərəcələrindən asılı olaraq onların yaş həddindən aslı olaraq yeni tektonik hərəkətlərinin xarakterindən asılı olaraq müxtəlif morfoloji quruluşa malikdir [1].

1.2. Şimali Azərbaycanda ekzogen relyefin ən dağıdıcı və yaradıcı forması qədim Qəbələ şəhəri və onu əhatə edən ərazidə mövcuddur. Burada əsasən orta dağlıq qurşağına (-1200-2500 m) dağ suxurlarının tərkibi, yağıntılarının miqdarının normadan artıq olması ilə əlaqədar olaraq yamacların meyillərinin çox olması və dərə aşınmasına daha tez-tez məruz qalır. Relyefin morfomet-rikliyi Qəbələ şəhəri ərazisində 8-10 km çatır. Mütəxəssislərin fikirlərinə Böyük Qagqaz quruluş cəhətincən ali mütəhərrik qurşağının Qafqaz bölgəsinin əsastektonik vahidlərindən olan eyni adlı meqantiklinoriuma uyğun gəlir. Qədim Qəbələ şəhərinin sahələri daxil olmaqla Azərbaycan Respuublikasında mövcud olan Şahdağ, Xızi, Turfan, Qovdağ və Vəndam strukturlu-fasiyalı zonaları ilə mürrəkkəbləşən həmin antik linariumu əsasən Yura-Təbaşir ətrafında isə Paleogen-Neogen çöküntülərindən, yəni dulus-fayans əşyalarının hazırlanması üçün faydalı olan minerallı çöküntülərdən təşkil olunmuşdur.

Yüz əlli ildən çoxdur ki, elmi idarələr və alimlər Şimali Azərbaycan ərazisində yaşamış əhalinin maddi-mənəvi mədəniyyət sahələrini təhlil edərək öyrənirlər. Aparılan təhlillər xalq yaradıcılığı dastanlarında: dastanlarda, ədəbi-bədii nümünələrdə, qədim incəsənət, torpaqaltı tatixi-arxeoloji abidələrdə öz əksini tapmışdır. Şimali Azərbaycan ərazisi Dünya tarixi-arxeoloji elmlərlə məşğul olan mütəxəssislər «Qədim məddəniyyətə malik olan klassik ölkə» adlandırırlar. Təhlillərin arxeoloji mədəniyyətlərdə-xüsusən kurqanlarda əks olunmaları və yoxlantıların yetərincə olmasa da hələlik orta məxrəcə gəlməyə şərait yarada bilmişdir. Şimali Azərbaycan ərazisində aşkarlanan kurqanların (Türk-poloves dilində «Qala adlandırılır» sayı minlərlədir. Lakin bu əvəzedilməz tarixi-arxeoloji abidələr ölkənin hər yerində müasir «Mədəni sivilizasiya»nın qurbanına çevrilməkdə davam etməkdədir [4]. Bu tip sivilizasianın "qurbanlarına" Qəbələ bölgəsi 40^0-$54^/$-47^0-$52^/$en dairələrində yerləşən Çuxur Qəbələ kəndi sahəsində İmran kişinin evindən təxminən bir km aralıda «Yeddi çinar» adlandırılan düzənlik sahədə qarışıq torpaqdan-daşdan inşa edilmiş uzun, dairəvi kurqan tiplərinə rast gəlmək olur. Uzaqdan seyr edəndə elə hicc edilir ki, onların hamısı bir-birinə bənzəyir. Yaxınlaşərkən çox sayda fərqli cəhətləri görmək mümkündür. Haqqında söhbətt gedən kürqanların ikisi uzun ölçülü digər ikisi ellipsvari, bir ədədi nisbətən hündür, böyük diametrli, qalan ikisi isə ölçülərinə görə bir-birindən hündür və diametrinə görə seçilir. Bu onların eyni zamanda inşa edilmədiyinə bir işarədir. Aparılmış çoxsaylı təhlillər bizə kurqanların ilkini Misir ehramları ilə həmyaşıd hesab etməyə imkan

yaradır. Çuxur Qəbələdəki bu tip kurqanlara Balakən, Masallı, Astara, Lənkəran və Cəlilabad bələdiyyə torpaqlarında yetərincədir.

M.P.Qryaznov [2] fikirlərinə görə uzun kurqanlar böyük bir icma birliyinə mənsubdur [7]. Böyük Britaniyada daşlı-torpaqlı uzun kurqanları Neolitt tarixi-arxeoloji mərhələlərinin ilk və orta pilləsinə Uindmillhill mədəniyyətə aid edilir. Bu çeşidli kurqanların meqalitlər üzərində tikilərək ətrafına torpaqdan sədlər çəkilmişini müşahidə etmək mümkündür. Lakin əfsuslar olsun ki, keçmiş "sovetləşdirilmiş sivilizasıya" bu tip çeşidli inşa-quraşdırma işlərini "maddi rifah xatirinə" şumlatdırıb məhv etdirmişdir. Bizə görə eyni istiqamətdə inşa edilmiş «Yeddi çinar» kurqanlarının ölçü müxtəliflik, dərinlik, uzunluq və hündürlüklər dəfn olunan şəxsin sosialvəziyyətinin təyininə əsaslanır.

Müxtəlif coğrafi iqlim bölgələşmələrinin, tarixi inkişaf proseslərdə yaranan yeni sahələr, o cümlədən təsərrüfat fəaliyyəti heş də həmişə bərabər səviyyədə getmirdi, bəzən bir yerdə əkinçilik və digərində maldarlıq inkişafda üstünlüyə malik olurdu. Texnotexnologiyanı inkişaf etdirın maldarlar, əkinnçilər və keyfiyyəti get-gedə yaxılaşdıran saxsı məmulatı birlikləri-dulusçular mədəni inkişafın mərhələlərini pillə-pillə qalxmağa ciddi-cəhd göstərirdilər.

Qəbələdəki «Yeddi çinar» ardıcıllığı bilavasitə Misir ehramlaına istiqa-mətlənir. Ölçülərdən bəlli olur ki, kurqanların-kromlexlərin inşası üçün gündə 3000-3500 nəfər tikintidə çalışırmış. N.Xaruzinin fikirlərinə görə torpaqlı uzun və dairəvi kurqanlar insanların qış aylarında dincəldikləri ərazilərdə geniş yayıla bilmişdir [3]. Fikrimizə görə bu tipli kurqanlar həmişə karvan ticarəti yollarının yaxınlığında inşa olunurdu. Çuxur Qəbələ kurqanları demək olar ki, sarı mine-rallı torpaq çöküntülərdən inşa edilmişdir. İnşa xüsusiyyətlərinə görə romba-bənzər bu kurqanlardan birincinin hündürlüyü 16-18 x 80 x120 m. əhatə edir. Tarla işləri zamanı kurqanın simmetriyası pozulmuş və üst hissəsində isə çala formasında qazılmış yerlər və qara rəngli kiloqramlıq çay daşları diqqətdən yayınmayır. Bəs formalardan asılı olmayaraq inşa edilən kurqanların tikilməsi nə məqsəd daşıyırdı?

Minilliklər ərzində formalaşmış insan-cəmiyyət qanunları ruhu bədəndən xaric olmuşları dəfn olunması kimi adət-ənənələrin yaranmasına kətirib çıxarmışdır. Bu adətlər iki bir-birinə yaxın iki bünövrə üstündə qurulmuşdur:

a) kortəbii, gigiyenik;

b) ölülərdən qorxma, ölüləri vəhşi heyvanlardan qorumaq.

Bu iki bir-birini inkar edən arzu-istəklərdən uzaqlaşmaq üçün qarılarında sual işarəsi kimi dayanıb durmuşlr. Bir tərəfdən onlara maneçilik törədənlər cəsəddən uzaqlaşmalı idilər, digər tərəfdən onlara bağlılıq, yəni cəsədinqorunması probleləri idi. Cəsədin məzarlarda-torpaq qatında gizlədilmə məsələsi hər iki bir-birinə zidd problemlərin bir növ " qarışdırılması" və ya kompomisə gedilməsini göstərir. Mütəxəssislər bir çox hallarda səhvən kurqanların inşası məsələlərini tayfa başçılarının və yaxud da qəhrəmanların şərəfinə tikinntisi ilə bağlayırlar. Dən olunmuların məzarları yanında böyük və hündür tikinti işlərinin təşkili ölülərdən qorxmaq kimi dəyərləndirilməlidir. İnsanlar çəkinirdilər ki, ölmüşlər onları narahat etmək üçün qaranlıq dünyadan yenidən geri qayıtmaq problemi dururdu onlar qayıdar qisaslarını almaqdan ötrü qanlarını içər və özləri ilə birlikdə onları qaranlıq dünyaya aparacaqlar.

İri rombabənzər kurqanlar (Qəbələ) heç də tezliklə deyil, bunun üçün uzun illər zaman tələb olunurdu. Dünyada, o cümlədən Şimali Azərbaycanda uzun kurqanları daş, ağac və mis əmək alətləri ilə qışda inşa etmək hec də mümkün deyildir. Bunun ücün qış aylarında ölüləri yaşayış yerindən 1-1,5 km məsafədə bir-birindən aralı yerlərdə qabaqcadan tərtib edilmiş xərəkəbənzər formadakı dəfn dərgahında dairəvi şəkildə düzülür, üstünə 50 sm qalınlığında torpaq töküb yayı gözləməli olurdular.

1.3. Şimali Azərbaycanın qədim tayfalaı haqqında olan mənbələr çoxcəhətli və müxtəlif ölçülərə malik malik kurqanların mövcud olmalarıdır. Müxtəlif dəfn adətt-ənənələrlə zəngin olan Dünya xalqlarının demək olar ki, hamısı insanın, o biri qaranlıq dünyaya daha dəqiq deyilsə ruhunun mövcudluğuna inamı vahiddir. İnsanın rəhmətə getməsi, ruhun bədəni tərk etməsi və sümüyün ətdən ayrllması ölülərə pərəstişin yaranmasına gətirib çıxartdı [5]. Fantastik təsəvvürlərlə yanaşı burada sosial-iqttisadi şəraitinin izlərinin təhlillərinə imkan yaradır. Verilən məlumat-informasiya imkanları vasitəsilə dövrün adət-ənənələrini tiicarəti, iqtisadiyyatın və mədəniyyatın inkişafı inkişaf surətini və elmlərin inşası xüsusiyyətlərini bərpa etmək mümkündür. Tayfa başçıları və nisbətən varlılar evlərini cənub-qərb tərəfə istiqamətləndirirdilər. Monqolustanda, Mərkəzi, Ön Asiyada [8] oduğu kimi Şimali

Azərbaycanda da bu tip kurqanların [6] mövcudluğu minilliklər boyu yaşayışa bir işarə deyildirmi? Bütün bunlara yanaşı ərazilərə sahib olmaq və gələcəkdə bu sahələin zəbt olunmalarına imkan verməmək üçün maddi-mənəvi mədəniyyət nümünələrinin inşasını bilavasitə tələb edirdi.

Nəticə. Şimali Azərbaycan ərazisində mövcud olan minlərlə kurqanların çoxsaylı təhlilləri nəticəsində məlum olur ki, Qəbələdən uzaqda yerləşən çox böyük və uzunluğu 180 metr olan "Yeddi kurqan" birinci və ikinci kurqanları Misir piramidalarının müasirləridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. 1c .Bakı: Elm, -1996. -267 s.
2. Грязнов, М.П. Курган как архитектурный памятник. В кн. тезисы докладов на заседанях посвященной, итогам полевых исследованиях в 1960 г. Москва: Наука, -1961. -с.22-25
3. Харузин, Н. История развития жилища у кочевых и полукочевых тюркских и монгольских народностей России. Этнографические обозрения. -1986, №2-3, -340 с.
4. Хэнкок, Г. Зеркало небес или поиски пропавшей цивилизации / Г.Хэнкок, Ф.Санта. - Москва: Вече, -2000, -2015. -416 с.
5. Церен, Э. Лунный бог. / Церен Э.-Москва: Наука, -1976. -3381 с.
6. Циркунов, В. Об эстетической природа зодчество / В.Циркунов. -Москва: Строитель, 1970. -216 с.
7. Чабб, М. Здесь жила Нефертити / М.Чабб. - Москва: Восточная литература, -1961. -144 с.
8. Челеби, Э. Путешествие. Крым и сопредельные страны. -Симфереполь: Доля, -2008. -272 с.

ГАСАНАГА РАМАЗАНЛЫ
Ведущий научный сотрудник отдела «Неолит-энеолитической археологии Азербайджана» Института Археологии и Антропологии НАНА, доктор философии по истории

ЗЕМЛЯНОЙ КУРГАН ПЕРИОДА БРОНЗА "ЕДДИ ЧИНАР" ГАБАЛЫ

Характеристики взаимного сближения познания и науки непосредстенно имеют знание в рамках объективных социальных процессов, с одной стороны, а с другой стороны, наука и образование, несовместимые изнутри, должны быть примерены в разных уровнях. Взаимодополняемость во многих вопросах встречается с острыми противоречиями. В конечном итоге уровень гуманитаризма в науке и образовании относительно низок, а эволюционные условия в современном обществе утрачены. Число курганов, обнаруженных в Северном Азербайджане, исчисляется тысячами. Один из них - второй из «Семи курганов», очень большой и длиной 180 метров, расположенный недолеко от Габала. После многочисленных анализов стало ясно, что первый и второй курганы являются современниками египетских пирамид.

Ключевые слова: Азербайджан, Габала, экосистема, курган, Мир, местность.

HASANAGA RAMAZANLI
Leading researcher at the Department of "Neolithic-Eneolithic Archeology of Azerbaijan" of the Institute of Archeology and Anthropology of the National Academy of Sciences of Azerbaijan, Doctor of Philosophy in History

EARTH MOUNT OF THE BRONZE PERIOD "YEDDI CHINAR" GABALA

Characterictics of mutual appoash of kowledge and scienceoof thesttage directly have valie within the framework of objective sosial processes, and education which are incompatible from the insidde, must be reconciledd at differentt levels. Muttial cmplementtarities are met with sharp ctiradictions. In many issues. In the end, the level of humanittariansm in scienee and educatio isn relati-

vely low, and tth evolutionary conditions are lost in modern societty. The number of barrows discovered North Azerbaijan is tthousands. One of them is the second of the «Seven Munds» which is very large and 180 meters long, located near the of Gabala. After numerous analyses, it became clear that the first and second mounds are contemporaneous with the Egyptian pyramids.

Keywords: Azerbaijan, Gabala, ecosystem, mound, World, terrain.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 may 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Xaləddin Xəlilli, t.e.d. Əmrah Dadaşov.